

# ALMAZLARIN İSTİFADƏ TARİXİNDƏN

**İLKANƏ HƏSƏNOVA**
*"AZİNTERPARTLAYIŞ-X" MMC*



**Almaz!** Bu söz hamıya məlumdur. Almaz digər qiymətli daşlar arasında şah adlanır. Qədim dövrlərdən bəri almaz misilsiz gözəlliyi və işıqda qeyri-adi bərqvurma qabiliyyətinə (işıq oyunu) görə ən qiymətli xəzinə sayılırdı. Almazlar tanrıların heykəllərini və padşahların taclarını bəzəyərdilər, almazla bütöv dövləti almaq olardı, əvəzi çoxlu qızılla və minlərlə insan həyatı ilə ödənilərdi, ona heyran olar və əfsanələr qoşulardı. Heyrətamiz xüsusiyyətlərinə görə almaz həm də insanların xidmətindədir və misilsiz bir əmək vasitəsi kimi istifadə olunmaqdadır. Bu gün də o fantastik bir zərgərlik zinəti və əvəzolunmaz bir əmək vasitəsi kimi qiymətləndirilir. Almazın sirri yaşamağa və bəşəriyyətin ağıl və hisslərini həyəcanlandırmağa davam edir. "Almaz" sözü ərəbcə "əlmas" yəni, "ən möhkəm" və ya yunanca "Adamas", yəni, "yenilməz, məğlub olmaz" sözündəndir. Tarixçilər almazın insana eramızdan əvvəl III minillikdə məlum olduğuna inanırlar. Eramızdan 500 il əvvəl almaz Qədim Yunanıstanda tanınırdı. Bu yaşı Yunanıstanda tapılan almaz gözlü kuklanın radioizotop analizi təsdiq etdi. Almaz barədə dastanların və ilk almazların kökləri əsrlər əvvəl onların tapıldığı Hindistana uzanır. Düzdür, kahinlər və tacirlər teztez öz mülahizələrinə görə (əlbəttə ki, eqoist) sağlam məlumatları əfsanə və uydurma ilə əvəz edirdilər. Hindlilər almazın beş prinsipdən qaynaqlandığına inanırdılar: torpaq, su, hava, od və enerji. Sosial kasta fərqliliyi almazlara da köçürüldü. Hindistanda almazlar dörd qrupa (kasta) bölündü: brahmanlar (gümüşü buludların rəngindəki almazlar), saf və rəngsiz — ən yüksək mükəmməllik dərəcəsi; kşatriyalar — qırmızı

almazlar, çünki kşatriyalar döyüşçülərdir; vayşya — yaşılımtıl və dumanlı (tacirlər, sənətkarlar); və nəhayət, sudrlar— boz almazlar (aşağı kasta). Qədim və orta əsrlərdə lapidariya adlanan kitablar var idi ki, onlarda qiymətli daşların, o cümlədən almazların möcüzəvi xüsusiyyətləri təsvir edilirdi. Qədim Roma alimi və tarixçisi Böyük Pliney "faydalı qazıntıların təbii tarixi" əsərində almaz haqqında söhbət açmağa başlayır: "insanın sahib olduğu əşyalar arasındakı ən böyük qiymət uzun müddət yalnız padşahlara məlum olan tək almazadır". Almazın sərtliyini vurğulamaq üçün kristalı əbədiyyətlə müqayisə etdilər və qədim hind kitablarında belə bir məsəl nəql olunur. "Zamanın nə olduğunu bilirsinizmi? Uzaq bir ölkədə dəniz sahilində buludlara söykənən nəhəng bir dağ var. Bu dağ tamamilə almazlardan ibarətdir. Min ildə bir dəfə bir quş bu dağın zirvəsinə uçur və dimdiyini daşla itiləyir. Beləliklə, quş dimdiyini itiləyərək dağın dibinə çatdıqda, əbədiyyətin ilk anı keçəcəkdir". Orta əsrlərdə lapidariyalarda almazların mənşəyi belə izah olunurdu: onlar birlikdə böyüyürlər, kişi və qadındırlar, səma şehi ilə qidalanırlar, böyüyən və çoxalan kiçik uşaqlar yaradırlar. Lapidariya müəllifi yazır ki "Mən çox cəhd etdim - onları kiçik bir süxur parçası ilə birlikdə yığsanız və may şehi ilə suvasanız böyüyəcəklər".

Almaza bir çox gözəl xüsusiyyətlər aid edildi. Məsələn, eyni lapidariyadan: "Almaz sahibinə möhkəmlik və cəsarət verir, əgər haqlıdırsa ona düşmənlər üzərində qələbə qazandırır. Ağıla itilik verir və onu qoruyur, əyləncədən, kədərdən və cadudan, pis ruhlardan qoruyur və lunatiklikdən sağaldır. Lakin almaz güc tətbiq etmədən, sərbəst şəkildə alınmalıdır, belə olarkan o daha böyük gücə malikdir. Hətta, yaxşı bir almaz da bu xüsusiyyətlərini sahibinin günahkar olması və təmkinsizliyi üzündən itirə bilər." Ən məşhur almaz yataqları Dekan yaylasındakı Golkonda Sultanlığında idi. Məşhur rus tarixi almazları "Şah" və "Orlov" oradan tapılmışlar. Almazların çıxarılması uzun illər boyu sirli əfsanələrə bürünmüşdü. Onların çıxarılmasının texnologiyası Avropada XVII əsrin 1622-ci ilində ingilis Metqold tərəfindən Golkondanı ziyarət etdikdən sonra bəlli oldu.

Böyük Pliney almazın müstəsna sərtliyini vurğulayaraq, yazırdı ki, əgər zindanın üstünə qoyulmuş almaza çəkiclə vurularsa, çəkic özü parçalanır. Əslində almaz kövrək bir mineraldır və yüngül bir təsirdən ovula bilər. Eyni zamanda, almaz bir gürz və ya polad material üzərinə qoyularaq tədricən sıxılarsa o zaman tamamilə poladın içərisinə daxil olacaqdır. Roma tarixçisinin yazdığına görə almazları yumşaltmaq üçün bir vasitə vardır. Almaz təzə kəsilmiş isti



keçi qanına qoyulmalıdır. Əyər heyvanı kəsməmişdən əvvəl cəfəri otu ilə bəsləsəniz, onda nəticə heyrətamiz dərəcədə müsbət olacaqdır. Almaz bıçaqla sanki "yağ kimi" kəsilə biləcəkdir. Təbii ki, qədim dünyanın alimləri dünyanın elmi biliklərini öyrənməyə yenicə başlayırdılar və almazın fantastik gözəlliyi və misilsiz sərtliyi onları çaşdırırdı, o dövrdə bu sahədə elmi biliklərin olmadığına görə bu qəbildən olan ağlasığmaz əfsanələr və uydurmalar yaranırdı.

Əvvəlcə almazlar yalnız bəzək kimi və təbii şəklində istifadə olunurdu. Yalnız XV əsrdə almazı cilalamağa başladılar. Almazı elə almazla da cilaladılar. Bunu ilk dəfə hollandiyalı Berkem etmişdi. XVII əsrdə almazı almaz tozu ilə örtülmüş məftillə kəsməyi öyrəndilər. Kəsmə prosesi aylarla davam edirdi. Məşhur almaz "Regent"i iki ilə “mişarladılar”. Onun ilkin kütləsi 410 karat idi. XIX əsrdə almaz mişarları meydana çıxdı. Bunlar almaz tozu ilə örtülmüş metal disklər idi.

XX əsrdə almazı ultrasəs və ya lazer, elektron kristalkəsmə üsulu ilə bölməyə başladılar. Almazın kimyəvi və fiziki tərkibi uzun müddət naməlum qaldı. Yalnız XVIII–XIX əsrlərin hüdudlarında almazın kimyəvi təbiəti dəqiq müəyyən edilmişdir. İngilis kimyaçısı S. Tennait almazı qızıldan düzəldilmiş qapalı bir qabda yandırdı və kristalın tək bir kimyəvi elementdən — karbondan ibarət olduğunu isbat etdi. Beləliklə, qrafit, kömür, almaz eyni dərəcəli bir mineraldır, lakin tamamilə fərqli fiziki və kimyəvi xüsusiyyətlərə malikdir. Almaz hidrogen atmosferində min dərəcə temperaturda mavi alovla yanaraq ağarır. Fərqli fiziki xüsusiyyətlər, karbon atomlarının almazda çox sıx bir şəkildə yerləşməsindən və hər birinin ətrafdakı atomlarla möhkəm bir şəkildə bağlanmasından asılıdır, halbuki kömür və qrafitdə atomlararası əlaqələr yalnız üfüqi olur. Almazlar XIII əsrdən etibarən Avropaya əhəmiyyətli miqdarda gətirilməyə başlandı. Səlib yürüşləri, Şərq sivilizasiyalarının miqrasiyası almazların Avropada görünmə-

sinin əsas səbəbi idi. Bunların hamısı Hindistandan gətirilirdi. Avropada eləcə də heç zaman öz almazı tapılmadı. Bənzər bir vəziyyət Rusiyada da müşahidə edildi. Almazlar bəzək kimi istifadə olunurdu və bunlar Hindistan kristalları idi. Çar Aleksey Mixayloviçin taxtı 800-dən çox qiymətli daşla bəzədilmişdi, Birinci Pyotr dövrünün ordenləri brilyantlarla bəzədilirdi. Xüsusilə XVIII əsrdə bir çox brilyantlar meydana çıxdı, tarixçilərin bu əsri "brilyant yüzilliyi" adlandırdıqları heç də səbəbsiz deyildi. Yelizaveta Petrovna və II Yekaterina təmtəraq və bərbəzəyi sevirdilər. 1762-ci ildə zərgər Hieronim Pozye tərəfindən Rusiya imperatorunun tacını bəzəmək üçün 2858 karat çəkisi olan 4836 ədəd brilyant qaş istifadə olunmuşdu (600 qramdan artıq almaz kütləsi). Kart oynayan imperatriça almazları "səpməyi" sevirdi və İsveçrəyə Qrimə yazırdı ki, bu "min bir gecə" nağılına bənzəyir. Rusiyada almaz tapılması tək-tək hallarda Dneprdə və Dvinada baş vermişdi, lakin ilk sənədləşdirilmiş almaz 4 iyul 1829-cu ildə Uralda tapıldı. Onu 14 yaşlı təhkimçi oğlan Pavel Popov Kresto-Vozdvizhensk qızıl mədənində aşkar etdi. Mədən qraf Polyenin mülkiyyəti idi. Tapıntısına görə gənc təhkimşilikdən azad edilərək sərbəstlik əldə etdi. Sonra daha iki almaz tapıldı, lakin azadlıq artıq heç kimə verilmədi.

Qraf Polye alman alimi Alexander Humbolta doğum günü münasibətilə bir almaz hədiyyə etdi. Humbolt Rusiyaya gələrək rus imperatorunu ziyarət etdi və almaz yataqlarını tapmaq üçün Urala getdi. Mineral bilicisi, coğrafiyaşünas və səyyah, 1825-ci ildə almaz çöküntülərinin tapıldığı Uralın və Braziliyanın mükəmməl geoloji oxşarlığına tam əmin idi. Tarixçilər 1829-1920-ci illərdə ümumi çəkisi təxminən 239 karat olan 80 almaz tapıldığına inanırlar. Çar hökuməti Rusiya almazlarının tapıntılarına biganə qaldı. Niyə? Çətinliklər daşın özünəməxsusluğu ilə yaradıldı. Digər tərəfdən, tapıntılar Rusiyanın son



dərəcə əlçatmaz "künclərində" edildi. Üçüncü, əsas səbəb var idi. Rusiya sənayesi ümumiyyətlə aqrar bir ölkə olmaqla çox sayda almaz məhsullarına ehtiyac duymadı. SSRİ-nin sənayeləşməsinin başlanması ilə, ilk beşillik plan illərində qiymətli daşların axtarışına maraq sürətlə artmağa başladı. Xüsusilə müdafiə sənayesi texniki almazlara çox ehtiyac duyurdu. Böyük Vətən müharibəsi illərində bu strateji xammala olan ehtiyac qismən Böyük Britaniya (460 kq) tərəfindən SSRİ-yə almaz tədarükü ilə aradan qaldırıldı, lakin "soyuq müharibə"nin başlaması ilə tədarük dayandırıldı. SSRİ geoloqları sovet əzmkarlığı, cəsarət, ən yüksək peşəkarlıq və vətənpərvərlik nümayiş etdirdilər. 1954-cü ildə Yakutiyada ilk kimberlit borusu "Zarnitsa" açıldı. Onu L. A. Papuqayeva tapdı. SSRİ almaz mövzusunu "bağladı".Dünyadakı almazların məqsədyönlü və sistematik axtarışı 1866-cı ilə aid edilməlidir, Cənubi Afrikada Narıncı çayının sahilində 21 karatdan çox ağırlığında bir almaz tapıldı. Dəhşətli "almaz həyəcanı" başladı. Müasirlər bunu belə təsvir edirlər: "dənizçilər gəmilərdən, əsgərlər ordudan qaçdılar. Polis məhbusları sərbəst buraxaraq silahını atdı. Tacirlər ofislərinə xidmət edən ticarətdən imtina etdilər. Fermerlər mal-qaranı Allah ümidinə buraxaraq tərk etdilər və bunlar hamısı Narıncı çayının sahillərində almaz axtarışına başladılar. Qumarbazlarla və adi adamlar, kilsələrini və tövbə edən günahkarlarını tərk edən keşişlərlə eyni arabada özlərinə yer tapdılar. Zabitlər, hüquqşünaslar, fermerlər, mexaniklər, xanımlar və məktəblilər qarışqa kimi işləyirdilər, kobud yonulmuş masalara qum və çınqıl ayırırdılar, yanından keçən insanlara əhəmiyyət vermirdilər". Beləliklə, Afrikanın cənubunda dünyanın ilk kimberlit borusu tapıldı, bununla da ilk yerli almaz yatağı aşkar olundu. Bundan əvvəl, qızıl daşıyan allüviumun yuyulması zamanı yalnız allüvial almaz yataqları aşkar edilmişdir: 1851-ci ildə Avstraliyada, 1825-ci ildə Braziliyada. Bəşəriyyət kimberlitdən, yəni kimberlit borusunu dolduran süxurdan neçə almaz çıxardı? 2000-ci ili müəyyən bir səviyyədə götürsək, bəşəriyyət Afrikanın cənubundakı ilk borunun kəşfindən başlayaraq 496 ton almaz çıxardı. Kimberlit borularındakı almazların qayanın ümumi kütləsinin milyondan birini təşkil etdiyini nəzərə alsaq, bu, böyük bir rəqəmdir. 1 karat (0,2 q) ağırlığında almaz əldə etmək üçün 100 min ton kimberlit "kürəkləmək" lazımdır.

Daha bir neçə rəqəm verək. 100 milyon karat almazdan yalnız 1 milyonu zərgərliyə yararlı olur, qalanları texniki almaz kimi sənayedə istifadə olunur. Almaz da uran və ya qızıl kimi strateji bir mineraldır.